Multikultural dəyərlər, tolerantlıq–Azərbaycanın dünyaya təqdim edilən bəşəri sərvətidir

Tərkib hissəsini tolerantlıq təşkil edən multikulturalizm Avropada XVII əsrdə yayılmağa başlamışdır: katoliklərlə provaslavlar arasında davam edən otuz illik (1618-1648-ci illər) müharibədən sonra bağlanılan sülh sazişinə görə, bütün dinlər və məzhəblər saziş imzalanan gündən tolerant yaşamalı, biri-birinə dözümlü olmalı idilər.

"Multikulturalizm" termini Avropada yaransa da, XX əsrin sonlarından başlayaraq tənəzzülə uğradı. Çünki dünyanın aparıcı dövlətlərinin həyata keçirməyə başladıqları ikili standartlar siyasəti beynəlxalq münasibətlərdə kəskin şəkildə müşahidə olunan etimadsızlıq və ədalətsizlik tendensiyalarının əmələ gəlməsinə səbəb oldu ki, bunlar da öz növbəsində dini nifrət, ksenofobiya, ayrı-seçkilik, islamafobiya, ekstremizm və s. bu kimi təhlükəli amillərin yaranmasına təkan verdi. Bütün bu təhlükəli amillər Avropada multikulturalizmin tam formalaşmasına və həyat tərzinə keçməsinə maneçilik törətdi. Son zamanlar bu amillərin getdikcə sürətlə artması, eyni zamanda bir çox Avropa ölkələrində faşist ideologiyasının gənclər arasında təbliği, xüsusilə Hitlerin "Mənim mübarizəm" kitabının çoxlu sayda yenidən nəşr olunaraq yayılması, Avropada həyat tərzinin deqradasiyaya uğramasını labüd edir. Bütün bu hadisələr Avropa mədəniyyətinin və mənəviyyatının iflasa uğramasından xəbər verir. Bu gün Qərbin mənəvi-siyasi həyatının reallıqları budur! Bunu avropalıların özləri də yaxşı dərk edirlər. Hətta Hollandiya qəzetlərindən biri bu ilin əvvəllərində bu barədə açıq-aşkar yazmışdır: "Avropada artıq müqəddəs bir şey qalmayıb".

Bu il mart ayının 22-də Brüsseldə həyata keçirilən terror aktları da Avropadakı mənəvi-siyasi həyatın reallıqlarından irəli gəlir. Müxtəlif millətlərdən olan 35 nəfərin həyatına son qoyan və 348 nəfər dinc əhalinin yaralanmasına səbəb olan bu terror aktları yalnız Belçikanı deyil, bütün Avropa strukturlarını hədəfə almışdır.

Bu gün Avropanı silkələyən qaçqınlar problemi kimi terrorla bağlı problemlərin də çoxalmasının səbəbkarı elə avropalıların özləridir. Bu problemlər onların digər ölkələrin daxili işlərinə qarışmalarının və bir çox terror təşkilatlarını dəstəkləmələrinin məntiqi nəticəsidir. Təsadüfi deyildir ki, Brüsseldəki terror aktları baş verməmişdən bir neçə gün öncə — martın 18-də Türkiyə Respublikasının Prezidenti R.T. Ərdoğan terror təşkilatlarına qarşı prinsipial mövqe tutmadıqlarına görə Avropa dövlətlərini kəskin qınamaqla yanaşı, onların da hər an terror aksiyalarına məruz qala biləcəkləri barədə xəbərdarlıq edərək demişdir: "Siz bilmirsiniz nə vaxt ayaqlarınızı minanın üstünə basacaqsınız, lakin bu, mütləq baş verəcək. Öz döşünüz üzərində isindirdiyiniz ilan sizi istənilən anda sanca bilər". Deyilən bu kəskin xəbərdarlıqdan üç-dörd gün sonra bütün dünya Türkiyə Prezidentinin haqlı olduğunun şahidi oldu.

Bu gün terrorçuların törətdikləri cinayətlərə görə məsuliyyət dünya birliyinin üzərinə düşür. Çünki dünya birliyinin önündə gedən iri dövlətlər, beynəlxalq terrorizmin bünövrəsini qoyan erməni terrorizmini vaxtilə dəstəkləmək əvəzinə onun məhvinə çalışsaydılar, bu gün dünyanın müxtəlif regionlarında terrorizm bu dərəcədə tüğyan edə bilməzdi.

XX əsrdə Qərbin dəstəyini hiss edən erməni terrorçuları müxtəlif ölkələrdə göbələk kimi baş qaldırır, təşkilatlanır və müsəlmanlara qarşı qırğınlar törədirdilər. Onların təkcə "ASALA" terrorçu təşkilatı 1975-1985-ci illərdə 21 ölkənin 38 şəhərində 110-dan artıq terror aktları təşkil ediblər. Azərbaycan ərazilərində isə ermənilər 1988-1995-ci illərdə yüzlərlə terror aksiyaları həyata keçirdilər ki, nəticədə 1568 nəfər günahsız insan həlak oldu, 1808 nəfər isə yaralandı.

Erməni terrorçularının azərbaycanlılara qarşı yüz ildən artıq davam edən çoxlu sayda soyqırımlarının sonuncusu və ən dəhşətlilərindən biri 1992-ci il fevralın 26-da Xocalıda baş verdi. Yalnız azərbaycanlılara qarşı deyil, bütün bəşəriyyətə qarşı törədilmiş bu cinayət nəticəsində əksəriyyəti qoca, qadın və uşaq olan 613 nəfər dinc əhali məhv edildi.

Ermənilərin bir əsrdən artıq azərbaycanlılara və türklərə qarşı davam edən terrorçuluq fəaliyyəti dünya birliyinin qözü qarşısında həyata keçirilirdi. Getdikcə azğınlaşan erməni terrorizminin qarşısını almaq üçün dünya birliyi bu müddət ərzində heç bir cəhd, təşəbbüs göstərmədi. Əksinə, 1980-cı illərin sonlarından başlayaraq, Qərb dövlətləri Azərbaycana qarşı təcavüzə hazırlaşan Ermənistan dövlətinə dəstək verərək, o illərdə bu dövlətin səyi nəticəsində Yerevana axışan erməni terrorçularını silahlandırmaqla məşğul oldular. Azərbaycan torpaqlarının 20 faizinin işğalı, 20 mindən artıq günahsız azərbaycanlının məhvi və bir milyondan artıq insanın qaçqın və köçkün düşməsi ilə nəticələnən Qərbin ermənilərə verdiyi bu dəstək, hazırda da davam etməkdədir. Bu dəstəyə arxalanan, terrorizmi dövlət siyasətinə çevirmiş Ermənistana, başda Serj Sarkisyan olmaqla, vaxtilə Xocalı soyqırımı törətmiş cinayətkar-terrorçu qruplar rəhbərlik edirlər. Himayədarlarının səyləri nəticəsində onlar bu gün də özlərini çox azğın və həyasız apararaq torpaqlarımızı azad etmək istəmirlər.

Avropada həyata keçirilən hər bir terror aktından dərhal sonra avropalılar terrorizmi məhv etmək üçün bütün səylərini səfərbər edəcəkləri barədə bəyanatlar verməkdən çəkinmirlər. Lakin onlar anlamırlar ki, neçə ki, erməni terrorçularının azərbaycanlılara qarşı törətdikləri soyqırımlarına dünya birliyi siyasi və hüquqi qiymət verməyib, neçə ki, Ermənistana rəhbərlik edən terrorçular özlərini təhlükəsiz hiss edirlər, neçə ki, terrorizmə ikili standartlarla yanaşılır, neçə ki, "yaxşı" və "pis" terrorçular anlayışı mövcuddur, neçə ki islam dinini alçaltmaq və gözdən salmaq məqsədilə özlərinin yaratdıqları terror təşkilatlarını islam dininə bağlamağa çalışırlar, terrorizmin məhv edilməsinə nail ola bilməyəcəklər. Terrorizmi məhv etmək üçün dünyanın iri dövlətləri, ABŞ və Avropa İttifaqı ilk növbədə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə, Ermənistanın terrorçu rəhbərlərinin Beynəlxalq Cinayətlər Məhkəməsinə verilməsinə çalışmalı və ayrı-seçkilik qoymadan terrorçu təşkilatlara qarşı mübarizəni davamlı şəkildə aparmalıdırlar. Yalnız bu halda terrorizmi məhv etmək mümkün olar. Bütün bunları Qərb ya başa düşmür, ya da başa düşmək istəmir. Təəssüf ki, digər sahələrdə olduğu kimi, terrorizmlə bağlı ikili standartlar siyasəti, ayrı-seçkilik bu gün də davam etməkdədir. Məsələn, Avropa dövlətləri, 2015-ci ilin yanvarında və noyabrında Parisdə, bu ilin mart ayında isə Brüsseldə həyata keçirilən terror aktlarına dərhal və çox kəskin şəkildə reaksiya verərək öz həmrəyliklərini nümayiş etdirdilər. Lakin bu ilin mart ayında çoxlu insan tələfatına səbəb olan, dalbadal Türkiyədə törədilən terror aksiyalarına, eləcədə Yəməndə və İraqda lap bu günlərdə baş tutan, ağır terror hadisələrinə Avropa dövlətləri tərəfindən heç bir reaksiya verilmədi. Hətta Hollandiya parlamentinin üzvləri Türkiyədəki terror aktları nəticəsində həlak olanların xatirəsini bir dəqiqəlik sükutla yad etməkdən belə imtina etdilər. Avropada baş verən bütün bu hadisələr bizə, burada dini nifrətin, islamafobiyanın artıq pik həddinə çatdığını deməyə əsas verir. Bu fikirlə əlaqədar bir neçə faktı da oxucunun nəzər-diqqətinə çatdırmağı lazım bilirəm. Belə ki, hələ 2005-ci ildə Məhəmməd Peyğəmbərin karikaturasını özünün redaktoru olduğu qəzetdə dərc etdirən Daniya vətəndaşı Fleminq Rouzun namizədliyi Nobel mükafatı kimi mötəbər bir mükafata təqdim olundu. Bir neçə il bundan əvvəl Türkiyə yazıçısı Orxan Pamuk da öz əsərlərində islamı təhqir etdiyinə və "erməni soyqırımı"nı sübut etməyə çalışdığına görə Nobel mükafatına layiq görüldü. Britaniya yazıçısı, Hindistan əsilli Salman Rüşdi də islamı təhqir edən şeirlərinə görə Avropanın rəğbətini qazanmışdır.

Bir tərəfdən dini nifrətin, islamafobiyanın və s. təhlükəli amillərin getdikcə artması, o biri tərəfdən iri dövlətlərin digər dövlətlərdə demokratiyanı, insan hüquqlarını bərqərar etmək adı altında dünyanı yenidən bölmək cəhdləri XX əsrin sonlarından başlayaraq dünyanın müxtəlif regionlarında (Şimali Afrikada, Yaxın Şərqdə, postsovet respublikalarında və s.) müharibə və münaqişə ocaqları yaratdı. Bütün bunlar da dünyada çoxlu sayda insan tələfatına və insanların kütləvi şəkildə öz yurd-yuvalarından didərgin düşmələrinə səbəb oldu. Təkcə son 15 ildə 45 ölkənin daxili işlərinə qarışılması nəticəsində bu ölkələri, əksəriyyəti müsəlman olan, 10 milyondan artıq qaçqın tərk edib. "Ərəb baharı" və rəngli inqilablar nəticəsində isə son illər yer üzündə qaçqınların sayı 70 milyondan çox artıb. Əgər 2001-ci ildə yer kürəsində qaçqınların sayı 171 milyon idisə, bu gün onların sayı 244 milyona çatıb. Yalnız Suriyada gedən müharibə illərində 4,5 milyon insan qaçqın düşüb. Bu qaçqınların min nəfərə yaxını dəniz sularında boğularaq həlak olmuşdur. 10 mindən çox qaçqın uşaq isə itkin düşüb. Bu müharibədə öldürülənlərin sayı artıq 450 mini ötmüşdür. Nəzərə alsaq ki, Suriya əhalisinin 91 faizi müsəlmandır, burada nə qədər müsəlmanın qırıldığı aydın olar. Bəla burasındadır ki, Avropada getdikcə güclənən dini nifrətin və islamafobiyanın təsiri altından çıxa bilməyən bir çox siyasi və dini xadimlər islam dininə ibadət edən insanların faciəsinə, həmişə olduğu kimi, indi də biganə münasibət bəsləyirlər. Bu ilin fevral ayında Roma Papası ilə Rusiya Patriarxının Kubada baş tutan görüşü baş verdi. Onlar bu görüşdə Şimali Afrikada və Yaxın Şərqdə baş verən hadisələrdə yalnız xristian qırğınlarının qarşısını almaq tədbirləri barədə müzakirələr apardılar. Güman ki, bu görüş ABŞ konqresinin xristianlar üçün çox mühüm bir addım atmasına təsir göstərib: 2016-cı il martın əvvəllərində ABŞ Konqresi Yaxın Şərqdə xristianların öldürülməsinin "Xristian əhalisinə qarşı soyqırım" kimi tanınması barədə qərar qəbul etdi ("Novoe Vremya" qəzeti, 18 mart 2016-cı il). Bütün bunlar onu göstərir ki, islamafobiya təkcə Avropada deyil, bütün xristian dünyasında yayılmaqdadır.

Beynəlxalq ictimaiyyəti təhdid edən bu təhlükəli amilləri — islamafobiyanı, dini nifrəti və s. vaxtında hiss edən respublika Prezidenti mədəniyyətlərarası dialoqu daim müzakirə obyektinə çevirən, ortaya çıxan problemlərə dərhal reaksiya verən bir platformaya ehtiyac olduğu qənaətinə gəldikdən sonra bu ili "Multikulturalizm ili" elan etdi.

Azərbaycanda 2016-cı ilin "Multikulturalizm ili" elan edilməsi dünya birliyinə bir siyasi mesajdır, sülhə, əmin-amanlığa, ədalətə çağırışdır. Bununla Azərbaycan dünyaya dialoq və inkişaf təklif edir. Eyni zamanda Azərbaycan islamafobiyanın və digər təhlükəli amillərin süni surətdə yayılmasına xidmət edən bir çox dini və siyasi xadimləri bəşəriyyəti fəlakətə sürükləyən əməllərindən əl çəkib, öz səylərini dinlər və millətlər arasında tolerant münasibətlərin yaradılmasına, multikultural dəyərlərin qorunmasına və inkişafına yönəltməyi təklif edir.

2016-cı ilin ölkəmizdə "Multikulturalizm ili" elan edilməsinin tarixi kökləri vardır. Azərbaycan əsrlər boyu mədəniyyətlərin qovuşduğu bir məkanda yerləşməklə müxtəlif millətlər və dinlər arasında aparıcı rol oynamışdır ki, nəticədə ölkədə mövcud olan dözümlülük, dostluq və həmrəylik yaranmışdır. Odur ki, Azərbaycanda hər bir etnos digər etnosların mədəni hüquqlarını tanıyır və bu hüquqlara hörmətlə yanaşır. Bütün bunlar da ona səbəb olmuşdur ki, əsrlər boyu ölkəmizin tarixində dini və yaxud etnik zəmində qarşıdurma baş verməmişdir. Bundan belə bir nəticə çıxara bilərik ki, Azərbaycanda multikulturalizmin tarixi burada yaşayan millətlərin, etnik qrupların yaşı qədərdir.

Azərbaycanda millətindən, dinindən, məzhəbindən asılı olmayaraq hər kəs digər din və mədəniyyətlərə də öz etiqad və ənənələrinə yanaşdığı kimi yanaşdığından cəmiyyətimizin mühiti, abhavası günü-gündən daha da sağlamlaşır, ölkəmiz sabitlik adasına çevrilir.

Məlum olduğu kimi, Azərbaycan dünyada iqtisadi cəhətdən çox sürətlə inkişaf edən bir ölkədir. Bir neçə il bundan öncə dünyanın məşhur iqtisadçıları buna çox təəccüblənirdilər. Axı necə olur ki, müharibə vəziyyətində olan kiçik bir ölkədə bu cür inkişaf baş verir? Nəhayət, bu qərara gəlirlər ki, bu iqtisadi inkişafın əsas səbəbi ölkədə olan sabitlikdir, dini konfessiyalar, etnik qruplar arasındakı mehribançılıq və isti münasibətlərdi, həm də milli əxlaq, milli tərbiyədir. Cəmiyyətimizdəki bu sabitlik ölkəmizdə günü-gündən möhkəmlənən multikultural dəyərlərdən, tolerantlıqdan doğan sabitlikdir. Bu sabitliyi heç bir qüvvə poza bilməz.

Cəmiyyətimizin yaşam tərzindən azçox məlumatı olan xarici mətbuat da bu barədə tez-tez yazılar verir. 2015-ci ildə Bakıda keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun iştirakçısı, ABŞ-ın Simon Vizyental Mərkəzinin aparıcı mütəxəssisi Annet Blüm "The Huffington Post" qəzetində dərc etdirdiyi "Bakı–dialoqun və sülhün unikal vəhdəti" adlı məqaləsində yazır ki, "Ekstremizm və dözümsüzlük əleyhinə çıxış edən bu ölkədə (Azərbaycanda) qəti şəkildə kök salmış dəyərlər sayəsində ətraf ölkələrdən gələn təhlükələr üçün özünə yer tapmaq və inkişaf etmək şansı yoxdur". Müəllif daha sonra yazır: "Azərbaycan bütün dini əqidələrdən və mədəniyyətlərdən olan insanların azad yaşadığı və bərabər imkanlara malik olduğu bir ölkədir". Burada elə bu yazıdan irəli gələn bir faktı oxucunun nəzər-diqqətinə çatdırmaq istəyirəm: Zaqatalanın Fındıqlı kəndində əsrlər boyu bir ailə kimi altı etnik qrup yaşayır. Burada yaşayan avarların, ruslarının, azərbaycanlıların, saxurların, ingiloyların və türklərin yaşam tərzi mehriban bir ailənin yaşam tərzinə bənzəyir. Odur ki, əsrlər boyu birgə yaşadıqlarına baxmayaraq, bu etnik qruplar arasında bir dəfə də olsun qarşıdurma olmayıbdır. Bu bir daha ondan xəbər verir ki, Azərbaycan lap qədimdən müxtəlif etnosların və dini icmaların dinc yanaşı yaşamalarının unikal nümunəsinə çevrilmişdir. Azərbaycanın bu sahədə əldə etdiyi təcrübə dünyanın görkəmli din xadimləri, siyasətçiləri, ictimai xadimləri tərəfindən dəfələrlə yüksək qiymətləndirilmişdir. Məsələn, Almaniyanın respublikamızda olan keçmiş səfiri Klaus Qrevlik hələ əsrin əvvəlində, 2004-cü ilin 22 iyununda Bakıda keçirilən tolerantlığa dair seminarda demişdir: "Yaratdığı dövlət-din münasibətləri modelini Azərbaycanın artıq ixrac etməsi mümkündür. Bu sizin sərvətinizdir". 2008-ci ilin mart ayında Bakıda rəsmi səfərdə olan Vatikanın dövlət katibi Kardinal Qarqizio isə ölkəmizdəki mövcud tolerantlığa belə bir qiymət vermişdir: "Azərbaycanda tolerantlıq onun xalqının nailiyyətidir. Mən Azərbaycanda qardaşlıq münasibəti gördüm və başa düşdüm ki, bu, burda yaşayan xalqın ənənəsidir".

30.04.2014-cü il tarixdə "ABŞ-Azərbaycan: gələcəyə baxış" adlı forumda Missisipi ştatının keçmiş qubernatoru Xeyli Barbur isə ölkəmizi belə qiymətləndirmişdir: "Azərbaycan Allahın Avropaya verdiyi hədiyyədir".

2014-cü ilin mayında Bakıda səfərdə olan İsrailin xarici işlər naziri Aviqdor Liberman da jurnalistlərlə görüşündə Azərbaycanda olan tolerantlığı tərifləyərək demişdir: "Azərbaycan tolerantlığın unikal nümunəsidir... Yəhudilər min illərdir ki, Azərbaycanda yaşayırlar və həmişə özlərini buradakı cəmiyyətin tamhüquqlu üzvü kimi hiss edirlər".

Dövlət başçımız multikulturalizmin beynəlxalq arenada təsdiqinə və təbliğinə hələ 2008-ci ildə start vermişdir. Onun təşəbbüsü ilə 2008-ci ildə Bakıda keçirilən Avropa İttifaqına üzv ölkələrin mədəniyyət nazirlərinin toplantısına İslam Əməkdaşlıq Təşkilatına üzv olan dövlətlərin mədəniyyət nazirləri, 2009-cu ildə yenə Bakıda baş tutan İƏT-ə daxil olan ölkələrin mədəniyyət nazirlərinin toplantısına Aİ ölkələrinin mədəniyyət nazirləri dəvət olundular. Respublika Prezidentinin dünya siyasətçiləri tərəfindən "Bakı prosesi" adlandırılan bu təşəbbüsü sonralar bir çox irimiqyaslı Beynəlxalq forumların, mədəniyyətlərarası dialoqların Bakıda keçirilməsinə təkan verdi. 2011, 2013 və 2015-ci illərdə Bakıda keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumları, 2013-cü ildə yenə Bakıda təşkil olunan müsəlman ölkələrinin Dini Liderlərinin Zirvə toplantısı, Heydər Əliyev Fondunun təşəbbüsü ilə 2014-cü ildə Moskvada təşkil olunan "Azərbaycan-tolerantlığın məkanıdır" fotosərgisi, 2015-ci ildə ölkəmizin birinci xanımı Mehriban Əliyevanın iştirakı ilə Parisdə baş tutan "Dini tolerantlıq: Azərbaycanda birgə yaşayış mədəniyyəti" mövzusunda keçirilən konfrans, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə bu il martın 10-11-də Bakıda dünyanın 50-dən çox keçmiş və fəaliyyətdə olan dövlət və hökumət başçılarının iştirakı ilə baş tutmuş 4-cü Bakı Qlobal Forumu və digər bu kimi tədbirlər multikultural dəyərlərin dünya miqyasında təbliğində Azərbaycanın əvəzsiz rolunu göstərdi. Multikulturalizm dəyərlərinin təbliği və təşviqi sahəsində 15 may 2014-cü il tarixli sərəncamı ilə Respublika Prezidenti İlham Əliyevin yaratdığı Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin apardığı işi isə xüsusi qeyd etmək lazımdır. Bu mərkəz tərəfindən ölkəmizdə və xaricdə multikulturalizm artıq bir fənn kimi tədris edilir. Keçən ilin yayında və bu ilin fevralında Bakıda Multikulturalizmin Yay və Qış məktəbləri təşkil olundu. Təkcə Qış məktəbində 16 ölkədən (İsveç, Almaniya, Rusiya, Yaponiya, Türkiyə və s.) 55 tələbə gənc iştirak etmiş və xalqımızın multikultural dəyərləri ilə yaxından tanış olmuşlar.

Yarandığı gündən iki ildən az bir vaxt keçməsinə baxmayaraq, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi Avropanın mədəniyyət mərkəzlərini də fəaliyyət meydanına çevirməyə başlamışdır. Artıq Avropanın bəzi mədəniyyət mərkəzlərində BBMM-in nümayəndəlikləri ilk addımlarını atmaqdadırlar. Məsələn, Almaniyanın Drezden şəhərindəki nümayəndəlik bu ilin mayında dini tolerantlıqla əlaqədar böyük bir konfrans keçirəcəkdir. Bu konfransda Azərbaycan cəmiyyətinin birgə yaşayış modeli şiələrlə sünnilərin birliyi çərçivəsində nümayiş etdiriləcək, bu iki məzhəb nümayəndələrinin necə bir yerdə ibadət etmələrindən danışılacaqdır.

Multikulturalizmin Azərbaycan modeli respublikamızda olduğu kimi, bir çox ölkələrdə də bu ildən artıq tədris olunmağa başlayır. Məsələn, "Azərbaycan multikulturalizmi" Almaniyanın Auqsburq şəhərində qədim universitetlərin birində, İndoneziyanın "Qacax Mada" universitetində, Tbilisidə İvan Cavaxaşvili Dövlət Universitetində, Latviya Pedaqoji Universitetində, Yeltsin adına Ural Universitetində, Praqanın (Çexiya) Karlovski Universitetində və Sofiyanın (Bolqarıstan) Klement-Oxridski adına Universitetində və digər xarici ali təhsil ocaqlarında bir fənn kimi tədris edilir. Ümumiyyətlə xarici ölkələrin 13 ali təhsil ocağında "Azərbaycan Multikulturalizmi" kursu daim tələb olunan bir fənnə çevrilmişdir. Bu tədris ocaqlarına tədris proseslərinin təşkilində (tədris-metodiki vəsaitlərlə, tədris proqramları və s. ilə) BBMM yaxından köməklik göstərir. Ölkəmizdə bu sahədə aparılan ardıcıl fəaliyyətin nəticəsidir ki, Azərbaycanın multikultural dəyərləri, tolerant ənənələri beynəlxalq ictimaiyyətin diqqətini getdikcə daha çox cəlb edir. ABŞ-ın Oreqon ştatı Senatının və Nümayəndələr Palatasının bu yaxınlarda-fevralın 24-də Azərbaycanın tolerantlıq modelini təqdir edən bir bəyanat vermələri bunun bariz nümunəsidir. Bu bəyanatda bildirilir ki, ABŞ Azərbaycanın tolerantlıq modelinin bütün dünyada təbliğinə çalışmalıdır.

Azərbaycan Respublikasının Prezidenti tərəfindən bir neçə il bundan öncə başlanğıcı qoyulmuş və dövlət siyasətinin prioriteti səviyyəsinə yüksəlmiş multikulturalizmlə bağlı həyata keçirilən tədbirlər Bakını artıq Beynəlxalq Platformaya, ölkəmizi isə mədəniyyətlərarası dialoq ölkəsi statusuna çevirmişdir. BMT kimi nüfuzlu bir təşkilatın Sivilizasiyalar Alyansının 7-ci Qlobal Formunun bu il aprelin 25-27-də Bakıda keçirilməsinin qərara alınması isə ölkəmizin dünyada artan nüfuzundan xəbər verir. Müxtəlif ölkələri təmsil edəcək 3000-dən artıq rəsmi şəxsin iştirakı gözlənilən bu Forum dünya miqyasında dinlərarası, mədəniyyətlərarası dialoqun aparılması sahəsində ən mötəbər və ən möhtəşəm Forum olacaqdır. Bu Forumda dünyanı narahat edən, demək olar ki, bütün məsələlər müzakirə olunacaq və bu barədə "Bakı Deklarasiyası" qəbul ediləcəkdir.

Dünyanın gələcəyi baxımından Azərbaycanın multikultural dəyərlərinin, tolerantlıq ənənələrinin təbliği və təşviqi ilə əlaqədar bu günə qədər görülən və gələcəkdə görüləcək işlərin əhəmiyyəti çox böyükdür. Çünki bu kimi tədbirlərin həyata keçirilməsi nəticəsində dünya ictimaiyyəti Azərbaycan həqiqətləri ilə daha yaxından tanış olur, xalqımızın həqiqətən tolerant, sülhsevər və işgüzar bir xalq olduğuna digər xalqlarda inam və əminlik yaranır. Ölkə başçımızın Gəncədə "İmamzadə" dini kompleksində yaradılan şəraitlə tanış olarkən söylədiyi kimi "Bütün bu işlərin bir məqsədi var ki, ilk növbədə ölkəmizin uğurlu inkişafı təmin edilsin. Dünya miqyasında Azərbaycanın rolu və bizə olan hörmət, inam, rəğbət daha da artsın".

Zahiddin ABBASOV,
Respublika Veteranlar Təşkilatının beynəlxalq əlaqələr və xalqlar arasında dostluq daimi komissiyasının sədri,
istefada olan ədliyyə polkovnik-leytenantı.